DİLİMİZ - VARLIĞIMIZ

# Ana dilimiz və milli kimlik: Prezident İlham Əliyevin dil siyasətinin konseptual və strateji aspektləri

**Dil hər bir xalqın varlığını, tarixi yaddaşını və milli kimliyini yaşadan əsas amildir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə ana dili ilə bağlı səsləndirdiyi fikirlər müasir Azərbaycan dil siyasətinin mahiyyətini, prioritetlərini və strateji istiqamətlərini aydın şəkildə ortaya qoyur.**



Prezident dilin rolunu digər milli simvollar - bayraq, gerb və himn - ilə paralel təqdim edir və onu dövlətin və milli birliyin fundamental elementi kimi vurğulayır. Dil bir xalqın tarixi və mənəvi varlığının əsas dayağıdır və onun qorunması dövlətçilik ideyalarının davamlılığının təminatçısıdır. Dil vasitəsilə xalq öz tarixi köklərini qoruyur və milli şüurun formalaşmasına, möhkəmlənməsinə töhfə verir.

Azərbaycan xalqı həm miqyası, həm zəngin mədəni irsi, həm də çoxəsrlik tarixi baxımından böyük və köklü bir xalqdır. Hazırda müstəqil Azərbaycanda 10 milyondan çox azərbaycanlı yaşayır; dünya üzrə isə 50 milyondan artıq azərbaycanlı var. Bu rəqəmlər göstərir ki, Azərbaycan dili yalnız ölkə sərhədlərində deyil, bütün dünyada böyük bir xalqın dili olaraq yaşayır. Dilin zənginliyi, ifadə imkanları və melodikliyi onun milli kimlik və dövlətçilik üçün strateji əhəmiyyətini bir daha təsdiqləyir. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan dili heç bir dilin kölgəsində olmamalıdır; o, öz tarixi və mədəni kökləri, ifadə imkanları və poetik zənginliyi ilə xalqın birliyini təmin edən mərkəzi elementdir. Əcdadlarımız Azərbaycan dilini tariximizin ən çətin dövrlərində də qoruyaraq gələcək nəsillərə əmanət ediblər və bu, milli kimliyin və tarixi yaddaşın qorunmasının ən mühüm zəmanətidir. Bu baxımdan hər bir nəsil öz öhdəsinə düşən vəzifəni yerinə yetirməli, dilimizi qorumaq və inkişaf etdirmək məsuliyyətini anlamalıdır.

Prezident, həmçinin dilimizə daxil olan bəzi xarici sözlərin dilə zərər verə biləcəyini vurğulayır. Burada söhbət beynəlxalq terminologiyadan və elmi sahələrdə zəruri leksikadan getmir. Problem bəzən bilərəkdən, bəzən isə bilməyərək dilimizə daxil edilən yad sözlərdir və onlar dilimizi zənginləşdirmir. Əksinə, bu sözlər milli dilin təbii strukturunu pozur. Prezident bunu "damcı-damcı, yavaş-yavaş" metaforası ilə izah edir. Yəni dilə edilən müdaxilələr çox vaxt hiss olunmadan baş verir, amma nəticədə dil üçün ağır fəsadlar yarada bilir.

Dil sadəcə ünsiyyət vasitəsi deyil; o, bir xalqın ruhu, tarixi yaddaşı və dövlətçiliyin dayağıdır. Prezidentin sözləri ürəyi titrədən bir həqiqəti ortaya qoyur: əgər dil əldən gedərsə, milli kimlik öz gücünü itirər, dövlətçilik prinsipləri zəifləyər və nəticədə bütün xalqımızın gələcəyi təhlükə altında qala bilər. Bu fikirlər dilin qorunmasının milli birliyin və dövlətin möhkəmləndirilməsi üçün həyati əhəmiyyət daşıdığını aydın şəkildə göstərir.

Prezident müsahibəsində müasir dünyanın qlobal xarakterinə diqqət çəkir. Qeyd edir ki, bugünkü dövrdə heç bir xalq və ya cəmiyyət qapalı məkanda yaşaya bilməz. Texnoloji inkişaf, internet resursları və sosial şəbəkələr vasitəsilə xalqlar arasında daimi təmas və məlumat mübadiləsi mövcuddur. Bu şəraitdə xarici sözlərin və ifadələrin milli dilə daxil olması qaçılmazdır. Lakin Prezident İlham Əliyev vurğulayır ki, bu sözlərin gündəlik istifadəyə daxil olması dilin təbii strukturunu zəiflədə və mənfi təsir göstərə bilər. Bu baxımdan dilin qorunması mübarizəsi yalnız passiv qorunma deyil, fəal və şüurlu müdafiəni tələb edir. Hər bir vətəndaş, mədəniyyət xadimi, müəllim və yazıçı bu prosesdə iştirak etməli, dilin zənginliyini, ifadə imkanlarını qorumağa töhfə verməlidir. Prezidentin bu çağırışı müasir dünyada dilin qlobal təsirlər qarşısında qorunması üçün strateji yanaşmanın vacibliyini ön plana çıxarır.

Azərbaycan dilinin qorunması yalnız ölkə sərhədləri ilə məhdudlaşmır, eyni zamanda dünya üzrə yaşayan azərbaycanlıları da əhatə edir. Xaricdə yaşayan azərbaycanlıların ana dilini yalnız gündəlik ünsiyyət səviyyəsində deyil, ədəbi və mükəmməl səviyyədə bilməsi böyük əhəmiyyət daşıyır. Azərbaycanlıların say etibarilə çox olduğu ölkələrdə ana dilində təhsil imkanlarının mövcud olmamasını ciddi ədalətsizlik kimi qiymətləndirən Prezident bu istiqamətdə dövlət tərəfindən onlayn məktəblərin açılmasını təşviq edir.

Ana dili ilə bağlı ən vacib dayaq sahələrindən biri təhsil sistemidir. Məktəblərdə və təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi yalnız qrammatik qaydaların və dil normalarının mənimsədilməsi ilə məhdudlaşmamalı, ədəbi dilin zənginliyi, nitq mədəniyyəti və dilin estetik imkanları sistemli şəkildə öyrədilməlidir. Bu prosesdə müəllim hazırlığı xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə ibtidai sinif müəllimləri burada ilkin model rolunu oynayır. Onlar şagirdlərin nitq vərdişlərini formalaşdırır, ona görə də danışıq və yazı dilində ədəbi norma və tələblərə tam riayət etmələri vacibdir; dialekt və ləhcədə danışmaq isə uşaqların dil vərdişlərini düzgün formalaşdırmaq baxımından qəbuledilməzdir. Bu, erkən yaşlarda formalaşan dil davranışlarının düzgün və səmərəli olması üçün əsas şərtdir. Məhz erkən yaşlarda formalaşan dil vərdişləri sonrakı mərhələlərdə şagirdin nitq mədəniyyətinə və dilə münasibətinə birbaşa təsir göstərir. Müəllim hər bir şagird üçün ilk "dil körpüsü"dür və bu körpü möhkəm olmazsa, gələcək nəsillərin dil və milli kimliklə bağlı yolunu da qismən itirmək riski yaranır.

Media və ictimai kommunikasiya sahəsi də dilin qorunmasında mühüm rol oynayır. Televiziya, radio, onlayn platformalar və sosial şəbəkələrdə Azərbaycan dilinin düzgün, saf və səlis istifadəsi təşviq edilməlidir. Jurnalistlərin və aparıcıların nitqi ədəbi norma və dil tələblərinə uyğun olmalı, yad və lazımsız xarici sözlərin istifadəsinə yol verilməməlidir.

Ana dilinin qorunmasında uşaqlar üçün hazırlanmış verilişlər, cizgi filmləri xüsusi, hətta həyati əhəmiyyət daşıyır. Dil inkişafı üzrə aparılmış araşdırmalar göstərir ki, məktəb yaşlı (təxminən 6-12 yaş) uşaqlarda dil yaddaşının genişləndiyi, söz ehtiyatının sürətlə böyüdüyü, qrammatik strukturların daha mürəkkəb forma aldığı və nitq qabiliyyətinin daha yetkinləşdiyi bir mərhələdir. Uşaqlar bu dövrdə daha geniş lüğət qazanır, daha mürəkkəb cümlələr qura bilir və dilin strukturunu daha dərindən başa düşürlər. Bu yaş qrupuna uyğun milli televiziya kanalları, maraqlı və intelektual verilişlər, həmçinin keyfiyyətli animasiya məzmunlarına böyük ehtiyac vardır. Burada təkcə dilin öyrədilməsi yox, mədəni yaddaş məsələsi də dayanır. Nağıl ənənəsini ekran dilinə çevirmək, milli qəhrəmanları uşaqlar üçün yenidən yaratmaq, musiqi mədəniyyətimizi kiçik izləyicilərin beyninə həkk eləmək - bütün bunlar belə platformaların funksiyasıdır. Milli uşaq kanalları fonunda hər gün yaşa uyğun verilişlər, keyfiyyətli və milli cizgi filmləri uşaqların yalnız ana dilini mənimsəməsinə deyil, eyni zamanda zəngin tarixi və mədəni irsi vizual olaraq qavramasına, özümüzün olan qəhrəmanları və folklor nümunələrini öyrənməsinə imkan verəcəkdir.

Bundan əlavə, bu cür məzmun uşaqların erkən yaşlardan özünü ifadə imkanlarına da müsbət təsir göstərir. Saf və ədəbi dil mühitində formalaşan uşaq fikirlərini daha sərbəst, ardıcıl və düzgün ifadə etməyi öyrənir, nitqində kompleks ifadə formalarından istifadə etməyi mənimsəyir, söz ehtiyatı zənginləşir və kommunikativ özünəinamı artır. Bu baxımdan milli uşaq mediası uşaqların ana dilini mənimsəməsinə, şəxsiyyət kimi formalaşmasına və milli kimliyini dərk edən nəsillərin yetişməsinə xidmət edən strateji sahə kimi xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubiley tədbirindəki çıxışı və yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsindən bir daha aydın olur ki, o, Azərbaycan dilinə və onun qorunmasına xüsusi həssaslıq göstərir. Dilin həm də milli kimliyi, tarixi yaddaşı və dövlətçiliyi yaşadan strateji amil olduğunu vurğulayan Prezident bu sahədə konkret və sistemli addımlar atmışdır. Onun təşəbbüsü ilə ölkədə Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı dövlət proqramları hazırlanmış, təhsil sistemində, media üçün nəzərdə tutulan layihələrdə dilin ədəbi norma və nitq mədəniyyətinə riayət olunması prioritetə çevrilmişdir.

Qeyd edək ki, Cənab Prezidentin dilə göstərdiyi xüsusi həssaslıq və həyata keçirilən sistemli tədbirlər həm ölkədə, həm də dünyada yaşayan azərbaycanlıların milli dəyərlərə, mədəniyyətə və dilə bağlılığını təmin edən möhkəm zəmin yaradır. Azərbaycan dili bizim milli kimliyimizin, tariximizin və birliyimizin daşıyıcısıdır. Onun qorunması isə dövlətçilik strategiyasının ayrılmaz parçasıdır. Bu siyasət dilimizin ədəbi formalarını nəsildən-nəslə ötürmək, milli kimliyi möhkəmləndirmək və dövlətçilik prinsiplərini qorumaq baxımından həyati əhəmiyyət daşıyan bir missiyadır. Hər bir vətəndaşın bu missiyanın bir parçası olduğunu dərk etməsi və Azərbaycan dilinə göstərdiyi diqqət və qayğını gündəlik həyatına daşıması ölkəmizin gələcəyinə verdiyi ən böyük töhfədir.

**Arzu İSGƏNDƏRZADƏ**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri**